UOT: 330.35

*Həmidə Adil qızı QAYIBXANOVA*
*"İqtisad və texnoloji elmlər" kafedrası , magistrant,*
*e.mail: hemidegayıbxanova@gmail.com*

*Müslümat Allahverdi qızı ALLAHVERDİYEVA*
*ADİU, "İqtisadi və texnoloji elmlər" kafedrası,*
*iqtisad elmləri doktoru,*
*e.mail: allahverdiyeva_muslunat@ mail.ru*
*10.30546/4.71.73001.2024.013*

# AZƏRBAYCANDA BEYNƏLXALQ TİCARƏTİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Azərbaycanda xarici ticarətin təhlili, mövcud problemlərin aşkarlanması, tənzimlənmə istiqamətində milli qanunvericlik sahəsində müsbət və problemli cəhətlərin ortaya çıxarılması, dövlətin bu istiqamətdə hansı prioritet istiqamətləri ortaya çıxarması və bu istiqamətlə əlaqəli beynalxalq təcrübəyə əsaslanaraq təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** – iqtisadi təhlil, mövcud məlumatların toplanması, ölkədə xarici və birgə müəssisələrin faəliyyətinin retrospektiv təhlili, ölkə şirkətlərinin dünya bazarında fəaliyyətinin statistik təhlili və bütün bu məsələlərin nəzəri aspektlərinin təhlili həyata keçirilir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – tədqiqatın nəticələrindən respublikanın xarici iqtisadi siyasətinin hazırlanması və dünya təcrübəsi ilə əlaqələndirilməsi üçün istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – Azərbaycan Respublikasının beynəlxalq ticarətinin tənzimlənməsi nöqteyi-nəzərindən əhəmiyyətli material ola bilər.

**Tədqiqatın özünəxaslığı və onun elmi yeniliyi** – hazırkı məqalədə respublikanın beynəlxalq ticarətinin tənzimlənməsi istiqamətində çox mühüm əhəmiyyətli məsələlər təhlil edilir. Azərbaycanın beynəlxalq bazara inteqrasiyasının hazırkı mərhələsində bu problemlərin aşkarlanması tədbirlərinin müəyyən edilməsi çox vacib elmi yenilik ola bilər.

***Açar sözlər: beynəlxalq ticarət, Azərbaycan, tarif maneələri, idxal, ixrac.***

## *Giriş*

Beynəlxalq ticarət fəaliyyətinin xüsusiyyətləri, beynəlxalq ticarətin standartlaşmasının qlobal strategiyası, uyğunlaşmanın multimilli strategiyası beynəlxalq ticarətin məhsul istehsalının yerləşməsi və texnologiyası prinsipi üzrə strategiyaları və s. daxil olmaqla xüsusiyyətlərinin aşkar edilməsi, beynəlxalq rəqabətliliyinin mahiyyətinin əsaslandırılmısı və beynəlxalq ticarətdə onların yerinin aşkar edilməsi, bir necə istiqamətdə əsaslandırılmısı, ölkələrin rəqabətqabiliyyətliliyi, sahənin (xarici ticarət) rəqabətqabiliyyətliliyinin təhlil edilməsi çox vacib və aktual məsələlərdir. Bu məqsədlə beynəlxalq ticarətin effektivliyinin tədqiqatının metodikasının verilməsi və metodlarının işlənməsi; beynəlxalq ticarətin ölkə və sahə səviyyəsində effektivlik göstəricilərinin müəyyən edilməsi beynəlxalq ticarətin tənzimlənməsində əsas məsələlərdir.

**1. Azərbaycanın beynəlxalq ticarətinin təhlili.** Xarici ticarət dövriyyəsi 1993- cü ildə 1,3 mlrd. dollar, 1994-cü ildə 1,4 mlrd. dollar olmuşdur. 1996- cı ildən yenidən xarici ticarət dövriyyəsi yüksəlməyə başlamışdır. 2002- ci ildə bu göstərici 3,8 mlrd. dollar olmuşdur, yəni 1993-cü ildən 2002- ci ilə qədər artım 2 dəfədən çox olmuşdur. 1994-1999-cu ilə qədər xarici ticarət dövriyyəsi mənfi saldo ilə başa çatmışdır. 2000-2002- ci illərdə isə müsbət saldo əldə olunub.1993-cü ildə xarici ticarət dövriyyəsinin 54%-i ixrac, 46%-i isə idxal olunmuşdur. Bu il müsbət saldoya malik olub. 1995- ci ildə ixrac 49 %, idxal 51 % olmuşdur. Nəticədə (-) saldo alınmışdır. 2000-2002- ci illərə baxsaq 2000-ci ildə ixrac 60%, idxal isə 40% olmuşdur, (+)saldo, 2002- ci ildə ixrac 57%, idxal 43% olmuşdur, yenə də müsbət saldo ilə nəticələnib. Bu illərdə neft amili xarici ticarətdə prioritet olmuşdur.

Müstəqillik əldə edildikdən (1991- ci ildən ) sonra, Xəzər dənizinin zəngin neft-qaz yataqları dünyanın nəzərini cəlb etməyə başladı. Buna görə də 1994-cü ildə sentyabr ayının 20-də Bakıda “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarında birgə neft hasilatı məqsədi ilə konsern tipli Əsrin müqaviləsi imzalandı. “Əsrin müqaviləsi” 510 mln. ton neft hasilatı və 55 mlrd. $m^3$qaz çıxarılması (30 il) haqqında bağlandı. [https://socar.az/az/page/azeri-ciraq-gunesli] Hazırkı dövrdə Respublikada dayanıqlı iqtisadi inkişaf üçün bir çox vacib dövlət sənədləri qəbul edilir. Onlara “Neft qaz gəlirlərinin idarə edilməsi üzrə uzunmüddətli strategiya”, “Azərbaycan Respublikasında istilik-energetik kompleksin inkişafı üzrə Dövlət Proqramı (2005-2015-ci illər), Azərbaycan Respublikasının regionlarının sosial- iqtisadi inkişafı üzrə dövlət proqramlarını (2004-2008, 2009-2013; 2014-2018) və digər sənədləri göstərə bilərik. Azərbaycanda cəmi 72 neft- qaz yatağı aşkar edilmişdir. Onlardan 54-ü istismar edilir. Bu 54 yataqdan 36- sı quru , 18-i isə dənizdə yerləşir, 9 yataq kəşfiyyat mərhələsindədir. Azərbaycan çox böyük enerji ehtiyatları ilə Avropa və Asiya arasında yerləşir. Çox əlverişli geosiyasi mövqeyə malik olan və enerji ehtiyatları ilə bol olan Azərbaycan dünyanın ən aparıcı ölkələrinin böyük marağına səbəb oldu. Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biri enerji ehtiyatları və onlardan dayanıqlı istifadə olunmasıdır. [7, s.115]

Azərbaycan Respublikası bu çətin dövrdə öz neft qaz ehtiyatlarına əlverişli investisiyalar cəlb etmək və ölkəni düşdüyü səviyyədən qurtarmaq üçün yollar axtarırdı. Nəhayət ki, H.Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycana investisiya axını başladı. Azərbaycanın ÜDM-inin artım dinamikasını verməklə bu aspektdə beynəlxalq ticarəti təhlil etməyə davam edək.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasının makroiqtisadi göstəricilərinin dinamikası (mlrd. manat)**

| İllər | ÜDM | Əhalinin gəlirləri | İnvestisiyalar |
|---|---|---|---|
| 2014 | 59014 | 39473 | 2189 |
| 2015 | 54381 | 71744 | 20074 |
| 2016 | 60426 | 45391 | 22707 |
| 2017 | 70337 | 4938 | 24463 |
| 2020 | 72091 | 52580 | 22480 |
| 2021 | 93203 | 57207 | 25314 |
| 2022 | 133826 | 68915 | 29136 |

*Mənbə : Arstat. orghttps://www.stat.gov.az/source/system_nat_accounts/*

1 saylı cədvəldən aydın olur ki, 1993-cü ildə ÜDM 32 mlrd. manat olmuşdur. 2022- ci ildə bu göstərici 134 mlrd. manat olmuşdur, yəni 4,182 dəfə artmışdır. 2021-ci illə müqayisə etsək bu göstərici 1,4 dəfə yüksəlmişdir. Azərbaycan iqtisadiyyatında dövlətin xarici sərmayələri stimullaşdırmasının nəticəsi olaraq, xarici şirkətlərlə əməkdaşlıq artmış və bu işlərin daha sivil formada aparılması üçün dövlət tənzimləmə sistemini qabaqcıl ölkələrin tənzimləmə praktikasına uyğunlaşdırmağa çalışır və bu sahədə nəzərəçarpacaq tədbirlər görülmüşdür. Azərbaycan Respublikası artıq dünya ölkələrinə investisiya qoyan ölkəyə çevrilmişdir.

Ölkəmizdə Rusiyanın investisiyaları ilə fəaliyyət göstərən 705 müəssisə mövcuddur. Azərbaycan Respublikası Rusiyada biznes fəaliyyətinə 1,3 mlrd dollar investisiya yatırıb. Ölkəmiz Rusiyanın 100-dən çox şirkəti ilə biznes əməkdaşlığı yerinə yetirir. Bizim Respublikamızda xarici investorlar ən çox neft sahəsinə, mədən, nəqliyyat sektoruna kapital qoyuluşu həyata keçirir. [8, s. 329] Avropa ölkələri Azərbaycana 30 mln. dollardan çox sərmayə yatırıb. Ölkəmizdə Ukrayna kapital qoyuluşu olan 130-dan çox şirkət fəaliyyətdədir. Amma Rusiya-Ukrayna müharibəsi bu sahəyə təsirsiz qalmadı.

Azərbaycanın xarici ölkələrə yönəltdiyi investisiyalar 2002-2005- ci illərdən 20 dəfə artıqdır. Bu, Azərbaycan iqtisadiyyatının beynəlxalq aləmə inteqrasiyasını göstərir. Amma birbaşa xarici investisiya qoyuluşu cəmi 4 dəfə artmışdır. Portfel investisiyalar daha çox tətbiq olunmuşdur. Amma birbaşa xarici investisiya qoyuluşlarının artması daha arzuolunandır. Birbaşa xarici investisiya qoyuluşları xarici tərəfdaşlığın ən mötəbər forması olaraq qalır.

**Cədvəl 2.**

**Azərbaycandan xarici ölkələrə yatırımlar (mlrd, ABŞ dolları)**

| İnvestisiyaların növləri | 2002-2005 | | 2011-2022 | |
|---|---|---|---|---|
| | Dollar | % | Dollar | % |
| İnvestisiyalar | 3755 | 100 | 64710 | 100 |
| Birbaşa | 3685 | 98 | 13015 | 20 |
| Portel | 70 | 2 | 51695 | 80 |

*Mənbə:Az.stat.orghttps://www.stat.gov.az/source/trade/*

Birbaşa xarici investisiyalar (BXİ) qoyuluşları barədə ölkəmizdə olan qanunvericilik bazası və respublikada bu istiqamətdə bağlanmış çoxsaylı sazişlər xarici investorlara çoxlu avantajlar saxlayır. Republikada bu istiqamətdə qəbul edilən qərar və qanunlar BMT-nin qəbul etdiyi qərar və qanunlarla əlaqələndirilir. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların dinamikasını təhlil edək.

**Cədvəl 3.**

**Azərbaycana qoyulan xarici investisiyalar (mlrd. ABŞ dolları)**

| Göstəricilər | 2015 | 2017 | 2020 | 2022 |
|---|---|---|---|---|
| Cəmi xarici investisiyalar | 10720 | 9121 | 6126 | 8237 |
| Maliyyə kreditləri | 2210 | 5714 | 1005 | 4110 |
| Birbaşa investisiyalar (neft sektoru) | 6623 | 4901 | 3923 | 3140 |
| Qeyri-neft sektoru başqa sərmayələr | 870 | 813 | 608 | 970 |

*Mənbə: https://wwwstat gov.az/source/systennat-accounts*

Azərbaycana son 20 ildə təxmini olaraq 230 mlrd. dollar investisiya yatırılıb [9. s.115] Respublikamızda birbaşa xarici investisiyalar (BXİ) ölkədə qəbul edilən qanunla tənzimlənir və sərmayəçilərin hüquqları qorunur, onlara dövlətin stimullaşdırıcı təsiri mövcuddur. Buna görə də ölkəyə investisiya qoymaq arzusunda olan ölkələrin sayı artır. Azərbaycanın əsas xarici tərəfdaşı sivil Avropa ölkələridir. 1995- ci ildə Azərbaycanda xarici ticarətin ümumi dövriyyəsi 1355 milyon ABŞ dolları olub, bu göstərici 2002- ci ilin sonunda 4000 milyon ABŞ dollarına çatıb, yəni 1993- cü ilə nisbətən 3 dəfə çoxalıb.1993-cü illə müqayisədə 2002-ci ildə bu dövriyyə 3 dəfə artıb. İdxalın strukturuna diqqət etdikdə görürük ki, 1995-ci ildə cəmi idxal 667 mln. manat olmuşdur. Bu göstərici 2002-ci ildə 1665485 min. ABŞ dolları olmuşdur. Bu göstərici 1995-ci ilə nisbətən 997 mln. ABŞ dollarına qədər çoxalmışdır. İdxalın strukturuna diqqət etsək görərik ki, diri heyvanlar və heyvandarlıq məhsulları 1995-ci ildəki 74 mln. ABŞ dollarından 34,3 mln. dollara qədər azalmışdır. Göstəricilərdən minerallar, kimya sənayəsi, plastik kütlə, kağız məmulatlarının, maşın və digər məhsulların idxalında artım olmuşdur.

Həm qurtuluş, həm də tərəqqi dövründə idxalın strukturunda müsbət istiqamətlər özünü göstərirdi. İdxalın artması, əlbəttə ki, mənfi bir tendensiyadır. İnkişaf edən ölkələrin inkişafının əsas səbəbi əmək tutumlu məhsulların idxal edilməsi və kapital tutumlu məhsulların ixrac edilməsidir. Azərbaycanın ixracının strukturu, idxalının strukturu əlbəttə ki dəyişilməlidir. İxracımızda əsas xam neft, yağları, təbii qaz, pambıq lifi, minerallar, emal olunmamış alüminium və s. məhsullar ixracı artmışdır. Təbii üzümdən olan şərabların, meyvə şirələrinin ixracının artması müsbət haldır. Amma digər malların ixracında artım xammal istiqamətindədir. İxracın tərəqqi dövründə diversifikasiyası genişlənmişdir. 2003-cü və 2022-ci illərdə ixracın tərkibində xam neftin ixracı azalmışdır. Təbii qaz (mlrd $m^3$) ixracı 14,915809 mlrd $m^3$ çoxalmışdır. Pambıq lifinin ixracı 22785 mln. ABŞ dolları olaraq artmışdır. Qara metallardan olan yarımfabrikatlar 9531 min ABŞ dolları artmışdır. İndisə ölkələr üzrə Azərbaycanın xarici ticarət fəaliyyətini təhlil edək.

**Cədvəl 4.**

**Ölkələr üzrə xarici ticarətin dövriyyəsi (mln. ABŞ dolları)**

| Ölkələr | X T D | | 2021 | | | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2021 | 2022 | İdxal | İxrac | saldo | İdxal | İxrac | Saldo |
| Cəmi | 33911,2 | 52686,5 | 11703,2 | 22208,0 | +10505 | 14540,0 | 38146,7 | +23606 |
| MDB | 4717,6 | 60495,6 | 2926,8 | 1790,1 | -1136,7 | 4413,8 | 1696,5 | -27173 |
| Digər ölkələr | 29195,0 | 46638,0 | 8776,6 | 20418,9 | +11642 | 10126,9 | 36512,0 | +26385 |

*Mənbə: azstat.org.az./source/trade.ticarət son yeniləmə13.12.2023*

Azərbaycanın 2021-ci ildə XTD-si 33,9 mlrd.dollar olmuşdur. 2022- ci ildə bu dövriyyə 52,6 mlrd. dollar olmuşdur, yəni 1,6 dəfə artmışdır. İdxal 2011- ci ildə 11,7 mlrd. dollar, ixrac 22,2 mlrd. dollar olmuşdur, 10,5mlrd. dollara qədər +saldo olmuşdur. MDB ölkələri üzrə idxal ixracdan çox olmuşdur. Həmin ölkələrlə Azərbaycanın XTD-si (-) 2,7 mlrd. dollar saldoya malik olmuşdur. Beynəlxalq ticarətin tənzimlənməsində bu ölkələrin XTD-sinin strukturuna diqqət etsək, həmin ölkələrlə idxalı azaltmaq, ixracı artırmaq vacibdir. Yerdə qalan dünya ölkələri ilə XTD (+) 2,6 mlrd. dollar olmuşdur. İndi isə idxalın və ixracın coğrafi quruluşunu təhlil edək.

Coğrafi regionalar üzrə cəmi 13,7 mln. ABŞ dolları, 2021-ci ildə 22,2, 2022- ci ildə 38,1 mlrd. dollar olmuşdur. Bu regionlardan XTD-də ixracda 2-ci yerdə Asiya ölkələri durur. Birinci fəsildə verilmiş, yəni seçilmiş tədqiqat metodu ilə idxalın və ixracın, ümumilikdə XTD-nin ÜDM-də xüsusi çəkisini (kvotasını) hesablayaraq, beynəlxalq normativlərə uygun olaraq hesablanmış göstəricilərdən nə dərəcədə fərqləndiyini, kənarlaşmasını müəyyən edək.

**Cədvəl 5.**

**Ölkədə idxal və ixracın ÜDM- də xüsusi çəkisi**

| Göstəricilər | 2015 | | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Mln. d. | % | Mln. d. | % | Mln. d. | % | Mln. doll. | % |
| ÜDM | 54,3 | 100 | 72,0 | 100 | 93,2 | 100 | 133,8 | 100 |
| İxrac | 16,5 | 30,3 | 13,4 | 18,6 | 22,2 | 23,8 | 38,1 | 28,6 |
| İdxal | 9,2 | 16,9 | 10,7 | 14,8 | 13,6 | 14,5 | 14,5 | 10,9 |
| XTD | 25,8 | 46,0 | 24,2 | 33,4 | 33,4 | 48,3 | 52,6 | 39,3 |

*Mənbə:Azstat.org. https://www.stat.gov.az/source/trade/*

XTD-nin ÜDM-də xüsusi çəkisini təhlil edərkən görürük ki, 2015-ci ildə XTD ÜDM -də 46% təşkil edir. İdxal ÜDM-də 16,9 %, ixrac isə 30,3 % təşkil edir. Beynəlxalq normativlərə görə ÜDM - də idxalın çəkisi 20 %-ə qədər olanda bu normal hal hesab olunur. 2015-ci ildə bu xüsusi çəki göstəriciləri normal hal hesab olunur. İxracın xüsusi çəkisi 30-40 % və daha çox olarsa ölkə iqtisadiyyatının daha inteqrasiya olunmuş açıq iqtisadiyyatlı olması anlaşılır. 2020- ci ildə idxalın ÜDM-də xüsusi çəkisi 14,8, ixracın xüsusi çəkisi 13,4 % olmuşdur. XTD isə 24,2% olmuşdur. Bu göstərici əvvəlki illərdə olduğundan daha çoxdur. 2021 və 2022-ci ildə isə bu göstərici normativlərə daha da uyğun olmuşdur. Ümumilikdə idxalın tərkibinin tənzimlənməsi vacibdir.

**2. Ölkənin tədiyyə balansının və xarici şirkətlərin ölkədəki ticarət fəaliyyətinin təhlili.**

Azərbaycanın beynəlxalq ticarətinin tənzimlənməsi ölkə səviyyəsində tədiyyə balansı ilə tənzimlənir. Xarici ticarətin , xarici iqtisadi əlaqələrin effektiv olub-olmaması üçün tədiyyə balansı əsas alətdir. Çünki bu əlaqələr tədiyyə balansında əks olunur. Tədiyyə balansı aşağıdakı kimi dəyərləndirilir:

- Saldonun dəyərləndirilməsi;
- Xidmət balansının dəyərləndiriməsi;
- Ödəmələrin həcminin dəyərləndirilməsi.

Tədiyyə balansı orta əsrlərdən meydana çıxmış gəlir miqdarıdır. İqtisadiyyat elminə CMiel tərəfindən daxil edilmişdir. 2022- ci ildə 9 ay ərzində tədiyyə balansı neft qiymətinin və neftin ixracının artmasından asılı olaraq dəyişilir. Tədiyyə balansının cari əməliyyatlarının hesabı balansı + 18 mlrd. dollar müsbət saldo yaratmışdır. Ölkənin xarici ticarətinin statistikasının güzgüsü tədiyyə balansıdır. İndi biz 2023-cü ilin 9 ayı üzrə tədiyyə balansını təhlil edək.

Bu ərəfədə dünya bazarında neftin qiymətinin yüksəlməsi və onların ixracının artması ilə müsbət tendensiyalar meydana gəlmişdir. Cari əməliyyatların balansında 8 mlrd. dollar, kapital hərəkətində 0,5 mlrd. dollarlıq bir proflit olmuş , aktivlərin ehtiyatı 7 mlrd. dollardan çoxalmış, xam neftin 1 barelinin qiyməti 85 dollar olmuşdur. 2023-ci ildə cari əməliyyatlar hesabının artımı 7 milyarda qədər olmuşdur ki, bu da ÜDM- də 13% xüsusi çəkiyə malikdir. Neft-qaz sektorunda bu artım ötən ildəkindən təxminən 44% azalmışdır, uyğun olaraq qeyri-neft sahəsində cari əməliyyatlar balansının kəsiri 45% artmışdır və 6 mlrd. dollara çatmışdır. İndi isə xarici ticarət balansını təhlil edək. Cədvəldən məlum olur ki, xarici ticarət balansı 2022- ci ilin 9 ayı üzrə 21,7mlrd. dollardan 2023- cü ildə 9977,0 mln. dollara qədər azalmışdır, yəni 54% azalma olub. Cəmi ixrac həmin dövrdə 31,9 mlrd. dollardan, 2023-cü ildə 21,9 mlrd. dollara qədər azalmışdır, yəni 30% azalma olmuşdur.

İdxal isə 2022-ci ilə nisbətən 24,4% azalmışdır.Neft-qaz sektorunda 40% -ə qədər azalma baş vermişdir. Yəni 27,9 mlrd. manatdan 16,9 mlrd. manata qədər azalma baş vermişdir. Bu sahənin azalmasında ixracın təxminən 34% -ə qədər azalması, idxalın isə 72% artması xarakterikdir. Qeyri-neft-qaz sektorunda isə 14% artım olmuşdur. Bu hesabat dövründə əmtəələrin ixracı 31% azalmışdır və 21 mlrd dollar təşkil etmişdir. 2023- cü ildə dünya neft bazarında neft ixracı 19,5 mlrd. dollar olmuşdur. Bu dövrdə ixrac edilmiş neft məhsullarının (19,5 mlrd. dollar) 12,4 mlrd. dolları neft , 5,6 mlrd. dolları isə təbii qazın üzərinə düşür. Qeyri -neft qaz ixracı17,4% çoxalaraq, 3mlrd. dollar olmuşdur. [AMB hesabatları- 2023 upload.cbar.az/assets/səh.9]

2022-ci ildə idxalın 42%- ni istehlak malları təşkil etmişdir. Bu əslində mənfi bir haldır. İstehlak malları hazır məhsullardır. Bu məhsulların əksəriyyətini ölkə öz xammalı əsasında ölkə daxilində istehsal edə bilər, yaxud daha əlverişli qiymətlə digər ölkələrdən ala bilər. İdxalın tərkibinin, demək olar ki, yarısına qədərini istehlak mallarının təşkil etməsi ölkənin iqtisadi kəsirliliyi baxımından təhlükəlidir. İndi isə kapital və maliyyə hesablarını təhlil edək.

Birbaşa investisiyalar istiqamətində aktivlər 175,1 mln. dollar olmuşdur, 739,1 mln. ABŞ dolları azalmışdır. Bundan neft-qaz sektoru 975,4 mln. dollar maliyyə aktivinə sahib olmuşdur. Bu sektorda -1617,9 mln. dollar öhdəliyi qalmışdır. Digər sektorda aktivlər 801 mln. ABŞ dolları, 879,4mln. dollar əhaliyə öhdəliyi olmuşdur. Neftdən gələn bonus da 470 mln. dollar olmuşdur. Portfel investisiyalarında - 695,4 mln. ABŞ dolları öhdəlikləri mövcuddur. Bu dövrdə maliyyə öhdəlikləri 54,4 mln. dollar çoxalmışdır. Bu artımın əsas səbəbi birbaşa investisiyalar, neft bonusu, digər investisiyalar hesabında formalaşmışdır. Birbaşa xarici investisiyaların tam miqdarı 2,8 mlrd. dollar olmuşdur. Beləliklə, BXİ ümumilikdə mənfi saldo ilə başa çatmışdır. BXİ-nin tərkibində neft sektoruna qoyulan investisiyalar çoxluq təşkil edir, yəni bu sektorun xüsusi çəkisi 80,1% təşkil etmişdir.

## *Nəticə*

1995-2022-ci illərdə Azərbaycana müxtəlif maliyyə mənbələrindən 97 mln. dollar həcmində investisiya qoyulmuşdur. Bütünlükdə bu sektorda gəlirlərin repatriasiyası 99 mlrd. dollar olmuşdur. Bu isə belə nəticəyə gəlməyə imkan verir ki, 27 ildə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların 95%-i artıq repatriasiya olmuşdur. Beləliklə, aşağıdakıları qeyd edə bilərik. Azərbaycan hökuməti də həmişə ölkəyə xarici investisiyaların cəlb olunması, beynəlxalq əlaqələrin möhkəmlənməsi siyasətini yürütmüşdür. Hazırkı vaxtda iqtisadiyyatın neft sektorunun stimullaşması istiqamətində ölçü götürülür. Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında biznesin inkişafı tədbirləri görülür. Bununla əlaqədar bu gün xarici investorların əksəriyyəti Azərbaycanda biznes qurmaq üçün maraqlıdırlar.

## ƏDƏBİYYAT


1. Андреева, Ю.А. Государственное регулирование хозяйственной деятельности ТНК./Автореферат диссертации на соискание ученой степени кандидата экономических наук/ - Москва, - РАГС ПРФ, - 2005, - с. 26.
2. Антонов, Я.В. Формирование государственной политики в сфере регулирования деятельности ТНК.//- Москва: Управление оьщественными и экономическими системами, - 2011, - № 1, - с. 52.
3. Алексеев, А.А. Тенденции и перспективы транснационализации российских корпоративных структур/Автореферат диссертации на соискание ученой степени кандидата экономических наук / - Москва, - 2005. -с. 26.
4. Allahverdiyeva, M.A. İqtisadi nəzəriyyə sistemində transmilli biznesin anlayış kateqoriya aparatı.// Post 2015: Qlobal çağırışlar şəraitində Azərbaycan Respublikasının davamlı inkişafı elmi-praktik konfransın materialları. - 2015, - 15 aprel - DİA, s. 65-72.
5. Allahverdiyeva, M.A. Transmilli biznes mühitində birbaşa xarici investisiyaların dünya təmayüllərinin təhlili və vəziyyəti // - Bakı: “Vergi” jurnalı, -2015, - № 6, -s.139-146.
6. Allahverdiyeva, M.A. *Transmilli biznesin nəzəri konsepsiyalarına və transmilli şirkət modellərinə elmi* yanaşmalar*.// -Bakı, “*AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası” jurnalı , - 2015, - №2, s. *27-32.*
7. Allahverdiyeva, M.A. Transmilli biznesin genişlənməsində birbaşa investisiyaların rolu.// - Bakı: İpək yolu , - 2016, №2, s. 112-116.
8. Əliyev, R.Ə. İqtisadiyyatın dövlət tənzimlənməsi // -Bakı: Elm və təhsil, -2014, - s. 442
9. Əhmədov, M.A. Qloballaşma şəraitində milli iqtisadiyyatın formalaşmasının nəzəri problemləri: i.e.d. alimlik dərəcəsi almaq ücün təqdim olunan dissertasiya işi, -08.00.01 / 10.M. Əhmədov: ADİU.- B., 2004. -370 s.
10. Nuriyev, C., Atakişiyev,M. Gömrük işinin təşkili və idarə edilməsi//- Bakı: Azərnəşr, - 2012, - s. 332.
11. http://stat.gov.az/:
12. file:///C:/Users/Azer/AppData/Local/Temp/Rar$DIa840.26291/liberation.pdf
13. https://www.stat.gov.az/source/demoqraphy/
14. https://www.stat.gov.az/source/education/
15. https://www.stat.gov.az/source/healthcare/
16. https://www.stat.gov.az/source/system_nat_accounts/
17. https://www.stat.gov.az/source/agriculture/
18. https://www.stat.gov.az/source/industry/
19. https://www.stat.gov.az/source/construction/
20. https://www.stat.gov.az/source/communication/
21. https://www.stat.gov.az/source/trade/
22. https://www.stat.gov.az/source/tourism/
23. https://www.stat.gov.az/source/regions/
24. https://www.stat.gov.az/source/information_society/
25. https://www.stat.gov.az/source/entrepreneurship/
26. https://socar.az/az/page/azeri-ciraq-gunesli

*Хамида Адиль кызы Гаибханова*
*кафедры “Экономика и технологические науки”*
*аспирант, эл. почта*
*hemidegayibxanova@gmail.com*

*Муслимат Аллахверди кызы Аллахвердиева*
*кафедры “Экономические и технологические науки”*
*доктор экономических наук,*
*allahverdiyeva_muslunat@mail.ru*

## Направление регулирования международной торговли в Азербайджане

*Резюме*

**Цель исследования** - проанализировать внешнюю торговлю в Азербайджане, выявить существующие проблемы, выявить положительные и проблемные аспекты национального законодательства в направлении регулирования, какие приоритетные направления следует предпринять государству в этом направлении, а также подготовить предложения и рекомендации на основе международного опыт работы в этом направлении.

**Методика исследования**: проводится экономический анализ, сбор имеющихся данных, ретроспективный анализ деятельности иностранных и совместных предприятий в стране, статистический анализ деятельности компаний страны на мировом рынке, а также анализ теоретических аспектов всех этих вопросов. вне.

**Прикладная значимость исследования**: результаты исследования могут быть использованы при подготовке внешнеэкономической политики республики, связать ее с мировым опытом в этом направлении.

**Результаты исследования**: Может быть важным материалом с точки зрения регулирования международной торговли Азербайджанской Республики.

**Оригинальность исследования и его научная новизна**: В настоящей статье анализируется в направлении регулирования международной торговли республики. На нынешнем этапе интеграции Азербайджана в международный рынок защита мер по выявлению проблем в Азербайджане может стать очень важной научной инновацией.

***Ключевые слова: международная торговля Азербайджана, импорт, экспортные тарифные барьеры.***

*Hamida Adil Gayibkhanova*
*“Economics and technological sciences”*
*department, graduate student, e.mail*
*hemidegayibxanova@gmail.com*

*Muslimat Allahverdi Allahverdiyeva*
*“Economic and technological sciences”*
*department, doctor of economic sciences,*
*allahverdiyeva_muslunat@ mail.ru*

## Direction of regulation of international trade in Azerbaijan

*Summary*

**The purpose of the study** is to analyze foreign trade in Azerbaijan, identify existing problems, reveal positive and problematic aspects of national legislation in the direction of regulation, what priority directions the state should take in this direction, and prepare proposals and recommendations based on international experience related to this direction.

**Research methodology**: economic analysis, collection of available data, retrospective analysis of the activity of foreign and joint ventures in the country, statistical analysis of the activity of the country's companies in the world market, and analysis of theoretical aspects of all these issues is carried out.

**Application importance of the research:** the results of the research can be used in the preparation of the foreign economic policy of the republic, to connect it with the world experience in this direction.

**Results of the research**: It can be an important material from the point of view of regulation of the international trade of the Republic of Azerbaijan.

**The originality of the research and its scientific novelty**: are analyzed in the current article in the direction of the regulation of international trade of the republic. At the current stage of Azerbaijan's integration into the international market, protection of problem detection measures in Azerbaijan can be a very important scientific innovation.

***Key word: international trade Azerbaijan, import, export tariff barriers.***